# QARABAĞDA HEYVANDARLIĞIN BƏRPASI VƏ İNKİŞAFI

**Vəli Qarayev**

*AMEA-nın Genetik Ehtiyatlar İnstitutu*

Qarabağ bölgəsinin heyvanlarlıq məhsullarının həcmi işğaldan əvvəl respublika üzrə xüsusi çəkiyə malik olmuşdur: İBH 15,8%, XBH 19,2% və donuzlar 38,7%, yumurta 3,6%, yun 19,3%, barama 17,0% təşkil etmişdir. İşğal müddətində 311 kənd təsərrüfatı müəssisəsi, 645,5 min ha kənd təsərrüfatına yararlı torpaqlar sıradan çıxarılmaqla yanaşı, 313,1 min başdan artıq iribuynuzlu mal-qara, o cümlədən 111,2 min baş inək və camış, 1 milyon 98 min qoyun və keçi qarət edilmiş, 20 min ton ət, 75,5 min ton süd, habelə 846,4 ton illik barama məhsulu itirilmiş və işğal edilmiş ərazilərdən kiçik qruplarla çıxarılan heyvanlar yol boyu aclıq və susuzluqdan tələf olmuşlar.

Biosferin mövcudluğunun təminatçısı, biogen və abiogen amillərin birgə təsiri nəticəsində formalaşmış dördüncü səltənət olan torpaqla yanaşı, mineral, bitki və heyvan müxtəlifliyinin bərpası və mühafizəsi bütün dünyada olduğu kimi, Qarabağ regionunda da həyatın dayanıqlığının əsas şərtidir. Bu bərpanın dünyanın hər bir yerində, ölkələr, şəhər və kəndlərdə uğurla həyata keçirilməsi beynəlxalq aidiyyəti təşkilatların göstərişi, tövsiyə və ya tələbidir.

Qarabağ bölgəsində də respublikanın qarşılaşdığı müvafiq problemləri həll etmək üçün bütün ölkə səfərbər olunmuş, mövcud ekosistemin sağlamlaşdırılması istiqamətində dövlət səviyyəsində əsaslı tədbirlər davam etdirilir.

Regionda heyvandarlıq üzrə kənd təsərrüfatı istehsalının bərpası və inkişafının planlaşdırılması zamanı Qarabağ üçün tarixən ənənəvi hesab edilən, daha çox səmərə verən əməktutumlu sahələrə, xüsusən qoyunçuluğun, ipəkçiliyin, həmçinin arıçılığın inkişafına diqqət yetirmək lazımdır.

Qarabağın Azərbaycan ərazisi olduğunu sübut edən canlı fosillərdən olan, at idman yarışlarının ənənəvi qəhrəmanları olan dünya şöhrətli Qarabağ köhləni atının elmi əsaslarla yetişdirilməsi və cins tərkibi xüsusiyyətlərinin qorunub saxlanılması istiqamətində damazlıq seleksiya tədqiqatlarının aparılması da regionda heyvandarlığın bərpa və inkişafında mühüm olaraq nəzərə alınmalıdır.

Heyvandarlığın inkişafı üçün təbii coğrafi şəraitin mövcud olduğu Qarabağda müvafiq sahənin bərpası ilə yanaşı, həm də inkişafının ekoloji təmiz kənd təsərrüfatı istiqamətində aparılması prioritetdir.